Soltan
Məcid
Qənizadə



Nağıl

Gənclik
Bakı – 1986







Ay uşaqlar, balalar!
Dağda kəklik balalar...
Durun, çıxın eşiyə,
Baxın Məstan pişiyə.
Quyruğu ilan kimi,
Gözləri mərcan kimi,

Tel-tel sarı bığları,
Şimşəkdir qulaqları.
Siçan görcək mırıldar,
Quş görcəyin moruldar...
Görüz, o nə haldadır,
Nağıl hələ daldadır.





Bircə kişi var idi,
İşdancığı dar idi.
Çıxdı bir gün buz üstə,
Sürüşdü, düşdü diz üstə.
Dedi: – Ay buz, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, məni gün əritməzdi...
Dedi: – A gün, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, mənim üstümü bulud almazdı...
Dedi: – A bulud, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, məndən yağış yağmazdı...
Dedi: – A yağış, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, məndən göy ot bitməzdi...



Dedi: – Ay göy ot, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, məni qoyun-quzu yeməzdi...
Dedi: – Ay qoyun-quzu, siz nə zalımsınız!
Dedilər: – Zalım olsaydıq, bizi qəssab kəsməzdi...
Dedi: – A qəssab, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, məni çoban aldatmazdı...
Dedi: – A çoban, sən nə zalımsan!
Dedi: – Zalım olsaydım, çarığımın bağın siçan kəsməzdi...
Dedi: – A siçan, sən nə zalımsan!







Dedi: – Zalım olsaydım, məni pişik yeməzdi...
Dedi: – A pişik, sən nə zalımsan!
Dedi: – Zalımam hay, zalımam.
Kürsü altı qışlağımdır
Yük üstü yaylağımdır.





Yay günü yel əsəndə
Çardaqlar oylağımdır.
Qış günü qar yağanda
Mətbəxlər ovlağımdır.
Çillə çıxar, qış gedər,
Xəbər novruzdan yetər,
Murov-murov çağırram,
Miyau-miyau bağırram.
Tüstü qalxar ocaqdan,
Mən qalxaram bucaqdan.
Duraram hay, duraram,
Bığlarımı buraram.
Qarı nənə çölə çıxanda
Süd-qaymağın vuraram.